"Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir"
*Cəlil Məmmədquluzadə*



# ÇIRAQ

31 oktyabr 2015-ci il № 10 (232) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiymәti müqavilə yolu ilə



Nazirlər Kabinetinin bu günkü iclasında biz ilin 9 ayının sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, bu il Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Bu, özlüyündə böyük göstəricidir. Çünki dünyada və bölgədə gedən proseslər göz qabağındadır. Həm bölgədə, həm Avropada böhran yaşanır, iqtisadi, hərbi, siyasi böhran. Belə şəraitdə iqtisadi inkişafa nail olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Bunun bir səbəbi var. O da ondan ibarətdir ki, Azərbaycanda düşünülmüş, müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**A. H. Hüseynovun Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

*Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin İİ hissəsini rəhbər tutaraq* ***qərara alıram:***

***Asif Həbib oğlu Hüseynov Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 12 oktyabr 2015-ci il.**

## OKTYABR AYININ RƏSMİ XRONİKASI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də İsrail Dövlətinin sabiq Prezidenti Şimon Peresi qəbul edib. Görüşdə Prezident İlham Əliyev ilə Şimon Peresin bundan əvvəl Bakıda və Davosda keçirilən görüşləri xatırlandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Türkiyə Respublikasının gömrük və ticarət naziri Cenap Aşçının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Azərsun Holdinq» Şirkətlər Qrupunun «Xəyal Adası» layihəsi çərçivəsində SABİS Sun Beynəlxalq məktəb kompleksinin və Qolf klubunun açılışında iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucar rayonuna səfərə gəlib. Dövlətimizin başçısı əvvəlcə Ucar şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu. Sonra «Ucar Aqro» MMC-nin quş kəsimi və broyler fabrikinin fəaliyyəti ilə, «Fermer» yol-istirahət mərkəzində yaradılan şəraitlə də tanış olub. Prezident İlham Əliyev Ucara səfəri zamanı Ucar Gənclər Mərkəzinin, Yeni Azərbaycan Partiyasının rayon təşkilatının yeni inzibati binasının və Ucar Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunan yeni binanın açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucar şəhərinin su təchizatı sisteminin yenidən qurulması layihəsinin başa çatdırılması münasibətilə təşkil olunan mərasimdə və yenidən qurulan Göyçay-Ucar avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucara səfərini başa çatdıraraq Göyçay rayonuna gəlib. Dövlətimizin başçısı əvvəlcə şəhərin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu. Prezident İlham Əliyev Göyçayda Gənclər Mərkəzinin açılışında iştirak edib, Bayraq Meydanı kompleksində yaradılan şəraitlə tanış olub.

Oktyabrın 6-da Göyçay Şəhər Musiqi Məktəbinin, Şahmat Məktəbinin, Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının yeni inzibati binasının açılışı olub. Açılışda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib.

Oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göyçay Rayon Mərkəzi Xəstəxanasının binasında əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub, «Göyçay» Su Elektrik Stansiyasının açılışında iştirak edib.

Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 18-ci iclasının iştirakçılarını qəbul edib.

Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq «Fair Play» Komitəsinin prezidentini, Avropa «Fair Play» Hərəkatının prezidentini və vitse-prezidentini qəbul edib. Dövlətimizin başçısına Beynəlxalq «Fair Play» Komitəsinin xüsusi medalı təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul edib. Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı.

Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Qazaxıstan Respublikasının Akmola vilayətinin Burabay qəsəbəsində keçiriləcək iclasında iştirak etmək üçün oktyabrın 15-də bu ölkəyə işgüzar səfərə gəlib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvilini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də İran İslam Respublikasının Şərqi Azərbaycan vilayətinin valisi İsmayıl Cabbarzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Sabunçu Məhkəmə Kompleksinin yeni binasının açılışında iştirak edib.



Oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Nəriman Nərimanovun heykəli, Hüseyn Cavid və Parlament prospektləri ətrafında yeni çəkilən yolların, bu ərazidə yenidən qurulan küçə və prospektlərin, yeni salınan parkların açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovu qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Beynəlxalq Mülki Aviasiya Təşkilatının prezidenti Olumuiva Benard Aliunu və Dövlətlərarası Aviasiya Komitəsinin sədri xanım Tatyana Anodinanı qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə yeni təyin olunmuş vitse-prezidenti Siril Müllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının ərazisində «Azertexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətinin texniki avadanlıqlar zavodunun açılışında iştirak edib. Prezident İlham Əliyev Sumqayıtda «SOCAR Polymer» layihəsi çərçivəsində inşa ediləcək yüksək sıxlıqlı polietilen zavodunun təməlqoyma mərasimində iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Yaponiyanın iqtisadi dirçəliş, sosial müdafiə və vergilərin ümumi islahatı üzrə naziri, iqtisadi və maliyyə siyasəti üzrə dövlət naziri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Monteneqronun Baş naziri Milo Cukanoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Oktyabrın 28-də Prezident İlham Əliyev Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də ATƏT-in Minsk qrupunun həmsədrləri Pyer Andryönu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

**AZƏRTAC**

# DOQQUZAYLIĞIN YEKUNLARI MÜZAKİRƏ EDİLMİŞDİR

Bildiyiniz kimi, oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

Cənab Prezident İlham Əliyevin adıçəkilən iclasdakı nitqindən irəli gələn məsələlər Siyəzən Rayon İcra Hakimiyyəti başçısı yanında keçirilən Şura iclasında ətraflı müzakirə edilmişdir.




İclası giriş sözü ilə açan Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclası barədə iştirakçılara məlumat vermişdir.

Daha sonra başçının müavini-sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Zəfər Əliyevin «Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkşafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası ilə əlaqədar Siyəzən rayonunda 2015-ci ilin doqquz ayında görülmüş işlər və qarşıda duran vəzifələr» haqqında məruzəsi dinlənilib müzakirə edilmişdir.

Məruzəçi bu il dünyada davam edən böhrana, eləcə də neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, ötən 9 ayda Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini bildirmişdir. Xüsusi vurğulamışdır ki, bütün bunlar əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilən siyasətin bariz nəticəsidir.

Məruzədə qeyd edilmişdir ki, ölkəmizin iqtisadi qüdrətinin artması, Azərbaycanın dinamik inkişafı Siyəzən rayonunda da öz əksini bariz şəkildə tapmışdır. Belə ki, Azərbaycanın hər yerində müşahidə edilən dinamik inkişafdan rayonumuza geniş pay düşmüşdür. Artfq şimal bölgəsində abad görünüşü, füsunkarlığı ilə seçilən Siyəzəndə ötən doqquz ayda da quruculuq işləri geniş vüsət almış, bütün istiqamətlərdə böyük nailiyyətlər qazanılmış, insanların rifah halı daha da yaxşılaşmışdır. 2015-ci ilin 9 ayında rayonda iqtisadi və sosial sahələrdəki vəziyyəti əks etdirən ümumi məhsul buraxılışı faktiki qiymətlərlə 123,2 milyon manat olmaqla əvvəlki ilin eyni dövrü ilə müqayisədə 11,9 faiz artmışdır. Ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun xüsusi çəkisi 71,2 faiz təşkil etmişdir.

Ötən 9 ayda əhalinin pul gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz artaraq 70 milyon 500 min manata çatmış, əhalinin iqtisadi fəallığı artmış, 233 yeni daimi iş yerləri açılmışdır.

Şura iclasında məruzəçi Z. Əliyev rayonda həyata keçirilən sosial layihələrlə, qazanılan uğurlarla yanaşı, həm də həllini gözləyən problemlər, çatışmazlıqlar və onların aradan qaldırılması yolları, davam etməkdə olan abadlıq işləri barədə də ətraflı danışmışdır. Bildirmişdir ki, cari ilin avqust ayından Siyəzən şəhər 2 saylı körpələr evi-uşaq bağçasının əsaslı təmir işlərinə başlanılmış və hazırda burada işlər yüksək sürət və keyfiyyətlə davam etdirilir.

Siyəzən-Məşrif avtomobil yolunun yenidən qurulması işləri başa çatdırlımış və cari ilin avqust ayında cənab Prezident İlham Əliyev həmin yolun açılışında iştirak etmişdir. Bu ilin əvvəlindən həmçinin «Siyəzən-Böyük Həmyə-Balaca Həmyə-Çəndahar» avtomobil yolunun tikintisinə başlanılmışdır. Hazırda yol yatağında işlərin demək olar ki, 50-60 faizi yerinə yetirilmişdir.

Şəhərin H. Talıbov küçəsində Qarabağ Müharibəsi əlilləri üçün üç ədəd fərdi yaşayış evinin tikintisində son tamamlama işləri aparılır. Hazırda Siyəzən şəhərində Heydər Əliyev fondunun dəstəyi ilə tikilən 120 yerlik körpələr evi-uşaq bağçasında, Siyəzən Rayon Yanğından Mühafizə Hissəsi üçün yanğınsöndürmə deposunda, Alternativ və bərpa olunan enerji mənbələrini tətbiq etməklə tikilən idman zalında, Kənd Təsərrüfatı Nazirliyinin Siyəzən Rayon Ərazi İdarəsinin inzibati-laboratoriya binasında, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Siyəzən Rayon bölməsinin inzibati binasında, 35/6 kv-luq «Siyəzən» yarımstansiyasının və Elektrik Şəbəkəsinin inzibati binasında tikinti işləri davam etdirilməkdədir.

Şura iclasında məruz ətrafında müzakirələrdə çıxış edənlər-YAP Siyəzən rayon təşkilatının sədri Etibar Heydərov, Maliyyə Şöbəsinin rəisi Samir Nemətov, Sukanal İdarəsinin rəisi Bəhram Yusifov, Siyəzən Elektrik Şəbəkəsinin rəisi Qismətəli Əsədov, Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini Elmir Camalov cari ilin 9 ayında görülən işlər barədə məlumat vermişlər. Çıxışlarda dövlət başçısının sahibkarlığın inkişafı, mancələrin aradan qaldırılması ilə bağlı görülən işləri fəal surətdə dəstəklədiklərini bildirmişlər.

Sonda müzakirə olunan məsələ ilə bağlı Qərar qəbul edilmişdir.

«ÇIRAQ»

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Hüquq şöbəsinin müdiri | Əliyev Şəmşad Məcid oğlu | şənbə | saat 11:00-dan başlayır |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 7 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | saat 10:00-dan başlayır |
| 8 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2015-ci ilin noyabr ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| Sıra №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1 | Balaca Həmyə kəndi, kənd tam orta məktəbin binası | 06.11.2015 | 15:00 |
| 2 | Zarat kəndi, kənd tam orta məktəbin binası | 13.11.2015 | 15:00 |
| 3 | Böyük Həmyə kəndi, kənd tam orta məktəbin binası | 20.11.2015 | 15:00 |
| 4 | Beşdam kəndi, kənd klubunun binası | 27.11.2015 | 15:00 |

## Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Cəlalov Mirələm Rahim oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Camalov Elmir Eldar oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Sukanal İdarəsinin rəisi | Ağayev Zamin Əlövsət oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yunusova Güllər Cabir qızı | Cümə günü saat 16:00-dan başlayır |
| 10. | Siyəzən rayon Əhalinin sosial müdafiəsi mərkəzinin direktoru | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 11. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktoru | Abdullayev Ramsin Nəriman oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Eyvazov Vahid Nəcəfağa oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi | Nemətov Samir Sabir oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |
| 16. | Siyəzən Rayon Mədəniyyət və Turizm şöbəsinin müdir əvəzi | Qədirli Zəminə Əlikram qızı | Cümə günü, saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

# ŞURA İCLASINDA

Bu günlərdə Siyəzən Rayonu İcra Hakimiyyəti başçısı yanında Şura iclası keçirilmişdir. Şura iclasını Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov açmışdır. Şura iclasında aşağıdakı məsələ dinlənilib müzakirə edilmişdir.

«Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının Siyəzən rayonunda icra olunması vəziyyəti haqqında.

Müzakirə olunan məsələ ilə əlaqədar Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar Səxavət Novruzov məruzə etmişdir. Məruzəçi bildirmişdir ki, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında «Renessans Studio» MMC tərəfindən 2030-cu ilədək olan dövrü əhatə edən «Siyəzən şəhərinin müfəssəl planlaşdırma layihsi ilə birlikdə Baş planı» hazırlanmış, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 1.6.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmiş «Müfəssəl planın hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydaları, habelə həmin planların razılaşdırıldığı orqanların siyahısı»na uyğun olaraq aidiyyəti orqanlarla razılaşdırılmış və «Yerli icra hakimiyyətləri haqqında» Əsasnaməyə uyğun olaraq Rayon İcra Hakimiyyəti başçısının 2015-ci il 3 aprel tarixli 31 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Siyəzən şəhərinin birinci baş planı 1987-ci ildə hesabat müddəti 2010-cu ilədək olan dövrü əhatə etməklə «Azərdövlətlayihə» tərəfindən işlənmişdir.

Natiq daha sonra qeyd etmişdir ki, Rayon İcra Hakimiyyəti başçısının müvafiq Sərəncamı ilə tikintisinə icazə verilmiş obyektlər barədə sənəd və məlumatlar Tikintilərin Dövlət reyestrinə daxil edilməsi üçün aidiyyəti üzrə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilmişdir. Tam tərkibdə təqdim edilmiş sənədlər Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Tikintilərin Dövlət reyestrində qeydə alınmış və həmin obyektlərə müvafiq kod verilmişdir.

Məruzə ətrafında müzakirələrdə Siyəzən Rayon İcra Hakimiyyəti başçısının Siyəzən şəhər İƏD üzrə nümayəndəsi Mais Süleymanov çıxış etmişdir.

Şura iclası müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul etmişdir.

**«ÇIRAQ»**

# MÜRƏKKƏB DÜNYA

Son vaxtlar dünyada cövlan edən hadisələr hər kəsdə həyəcan yaşadır. Yaxın Şərqdə, konkret olaraq Suriyada baş verənlər bütün dünyanı ənginə ala biləcək təhlükələrdən xəbər verir. Açıq-aşkar böyük güclər, hətta son dərəcə riskli addımlardan belə çəkinmirlər. Şantaj, hədə-qorxu siyasətlərinin əsasını təşkil etməyə başlayıb. Hərə özünü haqlı sayır. Kimi iqtisadi maraqlarının nəfsini qoruya bilmir, kimi xəstə təfəkkürü ilə hərəkət edir, kimi də yaranmış şəraitdə sadəcə qarşılıq verməyə çalışır. Bir sözlə, ara qarışıb, məzhəb itib.

Bu gün Azərbaycanın gücü, qüvvəsi yetər ki, Qarabağ düyününü ən qısa zamanda həll etsin. Baxmayaraq ki, düşmən ölkəyə silah-sursat havayı verilir, Azərbaycanın iqtisadi və hərbi potensialı bu maneəni dəf etmək iqtidarındadır. Düzdür, müharibə aparmaq asan məsələ deyildir. Gərək ölkənin iqtisadiyyatı da buna cavab versin. Bu baxımdan Ermənistanın hətta çox qısa müharibəyə də yetəcək iqtisadiyyatı yoxdur. Lakin...

Bizim Dağlıq Qarabağ kimi böyük problemimiz var. 20 ildən artıq bir müddətdir ki, bununçün əlverişli məqam gözləyirik. Bu məqam isə bizə hələ də nəsib olmur. Dünyada qarışıq siyasi mühit riskə yer qoymayır. Ən qorxulusu isə, dünyanın müharibə meydanına bizim ən böyük müttəfiqimiz Türkiyənin çəkilmək istəyidir. Və mənə elə gəlir ki, Rusiya da, Türkiyənin hərbi blok üzrə müttəfiqləri də buna xüsusi canfəşanlıqla can atırlar. Elə bil Türkiyə onların başı üzərinə düşmüş ağır bir daşdır. Hər vəchlə zəif duruma düşməsini arzulayırlar.

Osmanlı imperiyasının bərpasından qorxurlar. Əslində isə özləri də çox yaxşı anlayırlar ki, Türkiyənin belə bir fikri yoxdur. İmperiya qorxuludursa, tarixdə ən böyük imperiyalar ingilis, rus imperiyaları olubdur. Dolayısı ilə yanaşdıqda həmin imperiyalar bu gün də mövcuddur. Keçmişdə də, indinin özündə də qorxulu hərəkətlərə məhz bu imperiyalar yol veribdir.

Son bir neçə yüz ildir ki, islam ölkələri qeyri ölkələr tərəfindən məngənəyə salınmış kimi sıxılır, hər vəchlə zəif duruma salınır. Bu, onların artıq siyasətlərinin ana xəttini təşkil edir. İstəklərinə, təəssüf ki, nail ola bilirlər. Bu barədə mübahisə etməyə dəyməz. İş burasındadır ki, müsəlmanların da bəzi qrupları öz yanlış mövqeləri ilə yaranan koalisiya qüvvələrinə dəstəvuz verirlər.

Bəs bizim nicat yolumuz nədədir? Təşəbbüsü necə ələ ala bilərik? Məncə, elmə pul xərclənməlidir. Müdriklərin dediyi kimi, güc yalnız bilikdə, elmdədir. Çox təəssüf ki, müsəlman ölkələrinin az bir qismi bu həqiqəti qəbul edir. Lakin qəbul etməlidirlər. Başqa çıxış yolu qalmayıbdır.

Bəli, dünya bu gün çox qorxulu hadisələrin astanasındadır. Bunu görmək, başa düşmək o qədər də çətin deyildir. İndi, paradoksal səslənsə də, yalnız bir şeyə ümid qalıb. O da dünyada ayrı-ayrı ölkələrdə toplanmış iri miqdarda nüvə silahlarıdır. Məsələ burasındadır ki, nüvə silahının tətbiqi qorxulu nəticələrə səbəb olur. Bu həqiqəti hamı anlayır və ona görə də, nüvə qorxusu hələlik dünya üzərində sülh çətiri kimi durubdur. Onun fəsadlarının qorxusundan hərəkət edən yoxdur. Xirosima və Naqasaki həqiqətləri də insanlığa böyük dərs oldu. Güman ki, bundan sonra da nüvə silahından istifadə edən olmayacaq. Lakin nə bilmək olar. Ağılsız bir hərəkət hər şeyi alt-üst edə bilər. Böyük xoşbəxtlikdir ki, bəşəriyyət buna indiyədək dirəniş göstərə bilib.

Bir sözlə, kövrək bir dünyada yaşayırıq. Özümüzü birgə yaşayışın mümkünlüyünə inandırmalıyıq, çünki başqa yolumuz yoxdur. Nə qədər qarışıq dünya da olsa, bizim hər birimiz qəlbimizdə ölkəmizin ərazi bütövlüyünün həsrətini yaşadırıq. Və ümid edirik ki, böyük dövlətlər də, nəhayət, öz vicdanlarının səsinə qulaq asıb Azərbaycanımızın həqiqətlərini eşidərlər.

**İ. İLYASOV.**

# GÖRƏCƏYİMİZ İŞLƏR ÇOXDUR

Ölkəmiz son illər bir çox ölkələrin qibtə edəcəyi tərəqqiyə nail olubdur. Bəli, bu, bir həqiqətdir. Yəqin ki, bunu hər kəs öz həyatında da hiss edir. İnkişafın nədən ibarət olduğunu görə bilməyimiz üçün isə sadəcə, bir qədər keçmişə boylanmağımız yetər.

Bilirsiniz ki, ənənəvi olaraq hər rübün sonunda keçilən yola yenidən nəzər yetirilir, geniş təhlillər aparılır, qarşıda duran vəzifələr müəyyən edilir. Cənab Prezident İlham Əliyevin bu müşavirələrdə etdiyi nitqlər ölkənin siyasi, iqtisadi və mədəni həyatında baş verən mühüm hadisələrin öyrənilməsi baxımından hər birimizə zəngin material verir. Vətəndaş olaraq, cənab Prezidentin çıxışlarından irəli gələn məsələləri dərindən öyrənməliyik. Fəaliyyətimizdə rəhbər tutmalıyıq. Bu nitqi oxumaq və öyrənmək yetər ki, qazanılan nailiyyətlər, ümumiyyətlə, ölkəmiz barədə aydın təsəvvürə malik olaq. Təkcə bir faktı qeyd edirəm: Azərbaycan bu gün hərbi qüdrətinə görə düşmən üzərində əzici, mənəvi, insani və silah üstünlüyünə malikdir.

Sevinirik ki, rayonumuz da davamlı inkişaf yolunu seçib və bu istiqamətdə müvəffəqiyyətlə irəliləyir. Bununla belə, o da məlumdur ki, həyat davam etdikcə yeni hədəflərin, problemlərin zaman-zaman meydana çıxması labüd olacaqdır. Bu, həyatın dialektikasıdır. Nümunəsini elə öz rayonumuzun timsalında görə bilərik. Nə qədər möhtəşəm layihələr həyata keçrilsə də, nə qədər iri həcmli işlər yerinə yetirilsə də, sonda yenə görüləsi məsələlər qarşıya çıxır.

Təbii sualdır. Qarşımızda həllini gözləyən hansı problemlər dayanıbdır?

Problemlər var və onun ayrı-ayrı subyektlər tərəfindən irəli sürülməsi isə saylarının çoxluğuna gətirib çıxarır. Hamı tərəfindən dəstəklənilə də bilinər, arxa plana da keçirilə bilər. Belə olan halda öncə haradan və nədən başlanılmalıdır? Əsas məsələ budur. Belə istiqamətlər ən müxtəlif səpgili ola bilər. Razılaşdırılan və yaxud razılaşdırılmayan məqamların hansılarının daha öncə icra ediləcəyi barədə polemikaya da lüzum görünmür. Bu, bir çox amillərin mövcudiyyətindən asılıdır. Qeyd etdiklərimiz bizim yanaşmamızın və oxucularımızın ümumləşdirilmiş mövqelərinin məcmusudur.

**Ölkəmizin başçısı cənab İlham Əliyev son illər rayonumuza ardıcıl səfərlər etmişdir. Bu, bizim hər birimiz üçün böyük fəxrdir. Bilirsiniz ki, cənab Prezidentin bölgələrə hər bir səfəri yeniliklərlə müşaiyət olunur. Bu baxımdan onun rayonumuza etdiyi səfərlərin nəticəsi də göz qabağındadır. Elə bu diqqət və qayğının nəticəsidir ki, rayonumuz inkişaf edir, gözəl bir məkana çevrilir. İndi biz elə etməliyik ki, ən qısa bir zamanda həyata keçirəcəyimiz möhtəşəm yeniliklərlə möhtərəm Prezidentimizin diqqətini yenidən Siyəzənə yönəldə bilək, onun rayonumuza yeni səfərinin şahidi olaq. Bunun üçün potensialımız yetərincədir. Həm insani, həm də maddi resurslar baxımından. Məncə, möhtərəm Prezidentimiz İlham Əliyevin Siyəzənə növbəti gəlişini görmək siyəzənlilər üçün ən böyük nailiyyət ola bilər.**

Əlbəttə, gözləntilərimiz çoxdur. Bu sırada vacib addımlardan biri də küçələrin asfaltlanması məsələsidir ki, vətandaşların ən çox gözlədiyi məqam hesab oluna bilər. Amma onu da bilməliyik ki, bu, çox böyük vəsait tələb edən işdir. Həlli elə də asan deyildir. Bu işə start verilib. İndi tədrici də olsa, davamının gətirilməsinə çalışmalıyıq. Doğrudur, qarşıdan soyuq ayların gətirəcəyi yağmurlar prosesin ləngidilməsi üçün əsaslı səbəblər ola bilər. Hər halda əlverişli hesab olunan hər gündən səmərəli istifadə olunmasına çalışmalıyıq.

Siyəzəndə hətta ən çətin illərdə belə qaz və işıq sarıdan kritik vəziyyətlə üzləşməmişik. Bu, bilirsiniz ki, ərazidə «Siyəzənneft» NQÇİ kimi nəhəng müəssisənin varlığı ilə bağlıdır. Lakin o da sirr deyildir ki, əvvəllər mövcud imkanlardan, hazır resurslardan ayrı-ayrı subyektlərin icra məsələlərində səriştəsiz idarəçilik bacarığına görə, səmərəsiz istifadə ilə dəfələrlə rastlaşmışıq. Su, işıq və qaz məsələsinə ciddi yanaşılmalıdır. Bəzən vətəndaş kiminsə səhlənkar mövqeyi ucbatından bu sahələrdə yaşanan hər hansı problemi siyasiləşdirir, dövlətin mövqeyi ilə eyniləşdirmək istəyir. Müşahidələr göstərir ki, bu sahələrin hər birində, təəssüf ki, bəzən nöqsanlara da yol verilir. Qeyd etdiyim sahələr nəzərə alınmalıdır ki, əhatə dairəsinə görə bütün əhali təbəqəsini narahat edir. Ona görə, bu məsələdə xüsusilə diqqətli olmalıyıq.

Statistika deyir ki, Siyəzəndə işsizliyin səviyyəsi elə də böyük deyildir. Lakin hətta 5-6% ətrafında olsa belə, bu barədə narahat olmağa dəyər. Problemin aradan qaldırılması təkcə dövlət müəssisələrinin hesabına deyil, eyni zamanda, daha çox sahibkarlığın inkişaf etdirilməsi ilə həllini tapmalıdır. Bu amil nəzərə alınaraq, rayonumuzda sahibkarlara dəstək davam etdirilməli, genişləndirilməsi istiqamətində sövqedici bütün mümkün və məqbul vasitələrdən istifadə olunmalıdır.

Bir məsələ barədə də qeydlər etmək istərdim. Ölkənin uğurlarının təbliğ olunmasında bir çox vasitələrdən istifadə olunur. Effektli üsullardan biri də mədəni-kütləvi tədbirlərin keyfiyyətinin və sayının artırılmasıdır. Çox istərdik ki, paytaxtda keçirilən müxtəlif xarakterli intellektual yarışmaların qalibləri sırasında siyzənliləri də görək. Bu istiqamətdə təhsil, mədəniyyət müəssisələri fəallıqlarını artırmalı, mütəmadi çalışmalıdırlar. Rayon səviyyəli mədəni-kütləvi tədbirlərin sayının və keyfiyyətinin artırılmasına çalışmalıyıq. İdman sahəsindəki uğurlarımızı artırmalıyıq. Yaşlı nəsil yaxşı xatırlayır ki, bu gün Siyəzən futbolunun səviyyəsi keçən əsrin 60-70-ci illərindəki səviyyəsindən çox geri qalır.

**Daha bir fikri xüsusi olaraq qeyd etmək istəyirəm. Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun elə ilk yığıncaqdaca dediyi «Mən də bu gündən oldum siyəzənli» ifadəsi hər birimizdə xoş əhval-ruhiyyə yaratmaqla yanaşı, həm də Siyəzənin yaxşı gələcəyinə olan inamımızı möhkəmləndirdi.**

Bu yazıda çalışdım ki, mümkün qədər prioritet hesab olunacaq müəyyən məsələləri əhatə edim, vacib problemlərə qismən də olsa toxunum. Qeyd etdiyim bütün sahələr üzrə vəziyyət nəzarət olunacaq səviyyədədir. Söhbət isə daha böyük uğurlardan gedir. Bax, mənim demək istədiyim budur.

**İ. İLYASOV.**

# MÜSTƏQİLLİK GÜNÜ QEYD EDİLMİŞDİR

18 oktyabr-Müstəqillik günü ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da təntənəli şəkildə qeyd olunmuşdur. Mədəniyyət müəssisələrində, təhsil ocaqlarında Azərbaycanın dövlət müsətəqilliyinin 24 illiyinə həsr edilmiş tədbirlərdə ölkəmizin dövlətçilik tarixindən bəhs edilmişdir.

Çıxış edənlər XX əsrin sonunda bərpa olunan dövlət müsətəqilliyindən danışmış, onun qorunub saxlanılmasında böyük öndərimiz Heydər Əliyevin böyük xidmətləri olduğunu xüsusilə vurğulamışlar. Qeyd edilmişdir ki, məhz ümummilli liderin ölkəmizdə vətəndaş müharibəsi təhlükəsini aradan qaldırması, atəşkəsə nail olması müstəqillik üçün ilkin təminatlar yaratmışdır.

Tədbirlərdə müstəqilliyimizin bu gün də etibarlı əllərdə olduğu qeyd edilmiş, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab Prezident İlham Əliyevin ölkədə siyasi və iqtisadi sabitliyin qorunması istiqamətində gördüyü işlər yüksək qiymətləndirilmişdir.

**«ÇIRAQ»**

# ORDUMUZ QÜRUR MƏNBƏYİMİZDİR

Cəbhə bölgəsindən uzaqda yaşasaq da ürəyimiz o yerlərdədir. Televiziya kanallarından, mətbuatdan düşmənlə təmas xəttinə yaxın məsafədə yerləşən yaşayış məntəqələrindən aldığımız xəbərlər bizi də ciddi narahat edir. Elə gün olmur ki, ermənilər atəşkəsi pozmasınlar, güllə səsləri eşidilməsin. Amma...

Hər dəfə də Silahlı Qüvvələrimiz tərəfindən layiqli cavablarını alan mənfur düşmənlərimiz susmaq məcburiyyətində qalmalı olurlar. Bax, reallıq budur. Məhz Ordumuzun qüdrətinə arxalanan cəbhə bölgəsinin sakinləri düşmənlə üz-üzə, göz-gözə yaşamaqda davam edir, əkin-biçin işləri ilə məşğul olur. Gün-günə zəranı da çox gözəl, olduqca yaxşıdır.

Bəli, bu gün hər birimiz Ordumuzun gündən-günə artan qüdrətindən qürur duyuruq. Hər birimizdə erməni silahlılarının bu gücün qarşısında duruş gətirə bilməyəcəyinə möhkəm əminlik, inam hissləri vardır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Siyəzən Rayon Bölməsinin rəisi Rahim Mustafayevlə söhbətimiz də məhz bu notlar üzrə köklənmişdi. Ötən illər ərzində Ordumuz çox güclənibdir. Əminliklə deyə bilərik ki, Silahlı Qüvvələrimiz işğal altındakı torpaqlarımızı qısa müddətdə azad etmək gücünə malikdir. Silahlı Qüvvələrimizin keçirdiyi indiki genişmiqyaslı təlimlər belə söyləməyə əsas verir. Ordumuzla qürur duyduğunu söyləyən Rahim müəllim Siyəzənli gənclərin də bu işdə öz töhfələrini verdiklərini fəxrlə söylədi. Belə ki, çağırışçı gənclər növbəti payız çağırışında da böyük həvəslə, sevinclə Silahlı Qüvvələrimizin sıralarında xidmətə yola düşür, orduda layiqli xidmət edirlər. Dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev nə zaman döyüş əmri verərsə, siyəzənli gənclər də döyüşə atılmağa, azğın düşməndən qisas almağa hər an hazırdırlar.

**R. MURADOVA.**

## 1 NOYABR MİLLİ MƏCLİSƏ SEÇKİLƏR GÜNÜDÜR

54 saylı Şabran-Siyəzən dairə seçki komissiyasında noyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilərə hazırlıq işləri başa çatmışdır. İki rayonu əhatə edən dairə üzrə ümumilikdə 49 min 859 seçici səsvermə hüququna malikdir. Onlardan 29 min 10 nəfəri Şabran, 20 min 849 nəfəri isə Siyəzən rayonundan olan seçicilərdir.

54 saylı Şabran-Siyəzən seçki dairəsinə aid 42 məntəqənin hər birində seçicilərin tam şəffaf və demokratik şəraitdə səs verməsi üçün şərait yaradılıb.

Həmişə olduğu kimi, siyəzənli seçicilər də Milli Məclisə keçiriləcək seçkilərdə fəallıqla iştirak edəcək, öz iradələrinə uyğun istədikləri namizədə səs verəcəklər

**«ÇIRAQ»**

*Müasir gənclik*

## FİDANIN ARZULARI ÇOXDUR



Fidan Fərzəliyevanı tanıyırsınızmı? 2015-ci ildə Siyəzən şəhər 1 saylı tam orta məktəbini əla qiymətlərlə bitirərək Azərbaycan Beynəlxalq Tədris Mərkəzinin Qafqaz Universitetinə daxil olan Fidan qızımızı deyirəm. Qısa zamanda ölkəmizin təhsil, elm məkanında özünəxas keyfiyyətləri ilə seçilən, öz sözü, öz yeri olan bu nüfuzlu ali məktəbdə oxumaq onun çoxdankı arzusu idi.

529 balla adıçəkilən təhsil ocağının «İqtisadiyyat və İdarəetmə» fakültəsinə daxil olan Fidanın məhz bu ixtisası seçməsi, iqtisadçı olmaq istəyi səbəbsiz deyildir. Ulu babası iqtisadçı Miryusif İsmayılovu, babası, uzun illər maliyyə sistemində səmərəli fəaliyyət göstərmiş İsmixan Fərzəliyevi rayonumuzda yaxşı tanıyırlar.

Məlum olduğu kimi, Qafqaz Universitetində tədris ingilis dilindədir. Xarici dil öyrənməyə böyük həvəs və bacarığı, qabiliyyəti, bir də əməksevərliyi Fidana həmişə uğur gətirir. Çətinliklərdən qorxmayan F. Fərzəliyeva tələbə həyatının ilk günlərindən elmlərə səylə yiyələnməyə, yüksək bilik uğrunda yarışmağa çalışır.

Qazandığı uğurlara görə orta məktəb müəllimlərindən Fəxrəddin müəllimə, Mərziyyə müəlliməyə, Vahid müəllimə, Yaqut müəlliməyə, Vahab müəllimə, Sevil müəlliməyə minnətdar olduğunu söyləyən Fidan Fərzəliyeva ali məktəbdə də əlaçı tələbə olacağına söz veribdir. O, təhsil aldığı ali məktəbdə, burada tələbələr üçün yaradılmış ən yüksək şəraitdən də ağızdolusu razılıq edir. Hər cürə şəraitə malik yataqxana, isti yeməklər, gözəl tənzimlənən valideyn-ali məktəb rəhbərliyi əlaqələri-bütün bunlar son nəticədə tələbənin elmə, təhsilə həvəsini birə-beş artırır. Tələbələr də, onların valideynləri də məhz bunlara görə Qafqaz Universitetinin rektoru, professor Ahmet Saniçə minnətdarlığını bildirirlər.

Tələbə Fidan Fərzəliyeva öz ailəsinə. valideynlərinə, müəllimlərinə həmişə başucalığı gətirən, onların ümidlərini doğrultmaq, Vətənin layiqli vətəndaşı olmaq, kamil mütəxəssis kimi yetişmək istəyindədir. Valideynlərini, xüsusilə babası İsmixan müəllimi, nənəsi Xədicə müəlliməni uğurları ilə sevindirmək arzusundadır.

İnanırıq ki, həmişə də belə olacaqdır. Uğurlar olsun.

**R. MURADOVA.**

## SƏNİN SƏSİN-SƏNİN GƏLƏCƏYİN

14 oktyabr 2015-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə ilk dəfə səsverən gənclərin fəal iştirakının təmin edilməsi məqsədilə "Sənin səsin-sənin gələcəyin" mövzusunda dəyirmi masa keçirilmişdir. Siyəzən rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şəhər Mədəniyyət mərkəzinin konfrans zalında təşkil olunan tədbirdə 60 nəfər rayon gənci ilə yanaşı rayon ictimaiyyətinin nümayəndələri də iştirak etmişdir.

Dəyirmi masanı giriş sözü ilə rayon gənclər və İdman İdarəsinin rəisi Nadir Məmmədov açaraq, ilk öncə tədbirin keçirilmə məqsədi haqqında iştirakçılara məlumat vermişdir. Daha sonra 54 saylı Şabran-Siyəzən Dairə Seçki Komissiyasının üzvü İxtiyar İxtiyar İsayev, Ağsaqqallar Şurasının rayon şöbəsinin sədri Qəzənfər Nəcəfov, Heydər Əliyev Mərkəzinin direktoru Ramilə Seyidova, "Yurd" Gənclərin İntellektual İnkişafına Dəstək İctimai Birliyinin sədri Ramin Mahmudov, rayon Təhsil Şöbəsinin məsul işçisi Gündüz səmədli çıxış edərək, qanunvericilikdə nəzərdə tutulmuş seçki hüququndan düzgün istifadə etmə qaydaları, səsvermə günü gənclərin necə səsverməsi, ümumilikdə seçkinin əhəmiyyəti, gənclərin inkişafı üçün mövcud imkanlar, ölkənin ümumi iqtisadi-siyasi mənzərəsi, dünyada gedən proseslər və başqa mövzular üzrə ilk dəfə səsverəcək gənclərə ətraflı məlumat vermişlər.

Çıxışlardan sonra dəyirmi masada iştirak edən gənclərin sualları tədbir təşkilatçıları tərəfindən cavablandırılaraq müzakirələr aparılmışdır.

**Nadir MƏMMƏDOV,**
**Gənclər və İdman İdaraəsinin rəisi.**

*Yaddaşlarda təzələnən tarix*

## «KİTABİ-DƏDƏ QORQUD» DASTANI: 1815-2015

Əsərlərin də ömrü insan ömrünə bənzər. Doğular, ömür sürər. Onların da bir doğulma, ərsəyə gəlmə tarixi var. Bu ömrü şərtləndirən illərdir. Üstümüzdən yel kimi ötən illər... İl var səssiz-sədasız ötüb keçir. İl var unudulmur, yaddaşa hopur. İl də var yaddaşlarda yenidən təzələnir, bir tarixi gün kimi... Bu tarix bizi geriyə baxmağa sövq edir.

1815-ci il də bir tarixin tarixi olaraq tarixə döndü. Düz 200 il bundan əvvəl «Kitabi-Dədə Qorqud» kimi möhtəşəm bir abidəmizin olduğu haqqında məlumat almışıq. «Kitabi-Dədə Qorqud» oğuz türklərinin ən ulu və möhtəşəm abidəsidir. Bu ölməz sənət əsəri, islamiyyətdən öncə və onun ilkin çağlarında yaranan bu epos böyük bir tarixi yol keçərək günümüzə qədər gəlib çatmışdır.

Eposda boylarda ad qoymaq, elçilik, toy, yas və s. adət-ənənələrinin təsviri təbii boyalarla verilmişdir. Boyda oğuz qəhrəmanlarının öz oxuna, qılıncına and içmələri, çox qədim inamların izləridir ki, bu gün Qarabağ savaşında qazi olan Azərbaycan oğulları, belə qəhrəman oğuzların varisləridir.

Dastanda Ananın tanrı qədər uca tutulması ibrətamizdir. Qazan xan döyüşdən qabaq anasını düşməndən tələb edir ki, əl-ayaq altında qalmasın. «Dədə Qorqud»da ata, ana, oğul, qardaş sevgisi bütün boylarda özünü göstərmişdir. Qadına böyük hörmət, oğuz xanımlarının igidə tay tutulması diqqətəşayandır.

Azərbaycan xalqının tarixi-qəhrəmanlıq keçmişini əks etdirən, möhtəşəm sənət abidəsi olan «Kitabi-Dədə Qorqud» təxminən 1300 il bundan əvvəl meydana gəlmişdir. Qədim oğuzlar haqqında yaradılan bədii-əfsanəvi əsərlər, o zamanlar «Oğuznamələr» adı ilə tanınmışdır. İlk «Oğuznamə»dən XIV əsrdə Misirdə yaşamış Əbubəkr ibn Abdullah Davadari danışmışdır. Qədim «Oğuznamə»lərin ən böyüyü və məşhuru «Kitabi-Dədə Qorqud» eposudur. Əsl nüsxəsi bizə gəlib çatmasa da hazırda onun iki əlyazma nüsxəsi məlumdur. Hər iki əlyazma isə XIV-XV əsrdə daha əvvəlki əlyazmalardan köçürülmüşdür. Bu nüsxələr bir müqəddimə və 12 boydan ibarət olmaqla Almaniyanın Drezden, digəri isə bir müqəddimə, 6 boydan ibarət olmaqla Vatikan muzeyində saxlanılır.

Eposun əlyazma şəklində bizə gəlib çatması təsdiq edir ki, bu abidə həm də yazılı ədəbiyyat abidəsidir.

Abidənin elm aləmində məşhurlaşması alman alimi Fridrix Fon Ditsin adı ilə bağlıdır. Bu abidəni ilk dəfə aşkara çıxaran Fon Dits 1815-ci ildə «Təpəgöz» boyunu alman dilinə tərcümə edir və haqqında maraqlı fikirlər irəli sürür. XIX əsrin ikinci yarısından başlayaraq epos dünya türkoloqlarının diqqət mərkəzində dayanır.

Türk, Azərbaycan, rus, italyan, Amerika alimlərinin tədqiqat əsərləri meydana gəlir. Rus alimi V. Bartold 1894-cü ildə abidəni rus dilinə tərcümə edir. «Türk eposu və Qafqaz» əsərində belə hesab edir ki, «Kitabi-Dədə Qorqud»u Qafqazdan ayrı təsəvvür etmək olmur.

XX əsrdən türk alimləri də eposla maraqlanır. 1916-cı ildə Kilisli müəllim Rüfət əsəri ərəb əlifbası ilə nəşr etdirir. 1938-ci ildə Orxan Şaiq Gökyay tərəfindən Drezden nüsxəsi yeni əlifba ilə çapdan buraxılır.

Azərbaycanda isə XX əsrdən etibarən «Kitabi-Dədə Qorqud» öyrənilməyə başlanır. 1939-cu ildə H. Araslı ilk dəfə olaraq Bakıda eposun tam mətnini nəşr etdirir. Ə. Dəmirçizadə ilk dəfə olaraq 1959-cu ildə dastanların (boyların) dili haqqında ayrıca bir əsər yazır.

«Dədə Qorqud» 1972-ci ildə Amerikada, 1974-cü ildə Londonda 1978-ci ildə Təbrizdə çap olunub. «Dədə Qorqud»un mükəmməl nəşri BDU-nun professoru, həmyerlimiz Samət Əlizadənin hazırladığı, ön söz yazdığı 1999-cu il nəşridir.

1999-cu ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə dastanın 1300 illiyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün tarixi hadisə olmuşdur.

Bu sahədə xalq yazıçımız Ananın da xidmətləri əvəzsizdir. Mən deyərdim ilk dəfə olaraq bu abidəni Anar «Ana kitabımız» adlandırmışdır. Həm də yazıçı Anar «Dədə Qorqud» filminə yazdığı ssenaridə oğuz igidlərinin işıqlı, parlaq surətlərini yaratmışdır. Epos illərin daş yaddaşının qalibi kimi bu gün də bizimdir.

**Sima ƏHMƏDOVA,**
**3 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi.**

## «ƏMƏKDAR MÜƏLLİM» FƏXRİ ADINA LAYİQ GÖRÜLDÜ

Bir-birindən maraqlı, oxunaqlı kitabları ilə vaxtaşırı oxucuların görüşünə gələn şair-pedaqoq Nəcməddin Mürvətovu tanıyanlar, sevənlər, eşidənlər daha böyük xoş müjdənin sorağı ilə təbrik etdilər. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə «Əməkdar müəllim» fəxri adına layiq görülən təhsil işçiləri arasında həmyerlimiz, Siyəzən şəhər C. Cabbarlı adına 1 saylı tam orta məktəbin direktoru Nəcməddin Tacı oğlu Mürvətov da vardır.

Rəhbərlik etdiyi məktəbi nəinki rayonumuzda, eləcə də şimal bölgəsində, ölkədə qabaqcıl təhsil ocaqlarından birinə çevirməyi bacaran əsl pedaqoq, poeziya kəhkəşanında inci tək sözlər seçərək oxucusunun sevimlisinə çevrilən istedadlı şair, sözün əsl mənasında əsl ziyalı Nəcməddin müəllim bütün bunları özündə yüksək səviyyədə cəmləşdirə bilən xoşbəxt insanlardandır.

Bir neçə il öncəsə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təhsilin inkişafındakı xidmətlərinə görə «Tərəqqi» medalı ilə təltif edilən Nəcməddin Mürvətovu indi də «Əməkdar müəllim» fəxri adına layiq görülməsi münasibətilə çoxsaylı oxucularımız adından təbrik edirik.

**R. MURADOVA.**

## ÇƏKİLƏN ZƏHMƏT HƏDƏR GETMİR

Mehparə müəlliməni çalışdığı Siyəzən şəhər M. Müşfiq adına 2 saylı tam orta məktəbdə hamı qabaqcıl təhsil işçisi kimi tanıyır.

M. Tağıyeva 1984-cü ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirərək pedaqoji fəaliyyətə başlayıb. İşlədiyi illər ərzində tədris etdiyi fənnin şagirdlər tərəfindən yüksək səviyyədə mənimsənilməsi üçün bilik və bacarığını əsirgəməyib. Daim öz üzərində işləməklə həm də pedaqoji ustalığı artırmağa çalışıb.

Məhz əməksevərliyinin, müəllimlik peşəsinə böyük sevgisinin nəticəsidir ki, yaxşı işi həmişə təriflənib, ona baş ucalığı gətirib. Bu günlərdəsə Mehparə Tağıyeva Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri-Fərmanı ilə təltif edilmişdir.

**R. MURADOVA.**

## İTMİŞDİR

Əsədov Qismətəli Məmməd oğluna məxsus 2003196000654 saylı sosial sığorta şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı:
Siyəzən şəhəri,
Şəhriyar küçəsi, 1a

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 3476
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83